*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*10 (1) 2023*
https://doi.org/ 10.46868/atdd.2023.




*Araştırma Makalesi | Research Article*
*Geliş tarihi |Received :11.07.2023*
*Kabul tarihi |Accepted: 10.08.2023*
*Yayın tarihi |Published : 25.08.2023*



**Məmməd Rzayev**

https://orcid.org/ 0009 -0007 -5495 -0893
*Doctor of philosophical Sciences Professor, Nakhchivan State University, Azerbaijan, mamedrazi@mail.ru*

***Atıf Künyesi | Citation Info***

Rzayev, M., (2023). Azərbaycan Xalqının Ulu Öndəri, Tarixi Şəxsiyyət Heydər Əliyevin Yolu. *Akademik Tarih ve Düşünce Dergisi*, *Azerbaycan Halkının Milli Lideri Haydar Alirza Oğlu Aliyev'in Doğumunun 100. Yılı Özel Sayısı, 10* (1), 55-61

# Azərbaycan Xalqının Ulu Öndəri, Tarixi Şəxsiyyət Heydər Əliyevin Yolu

***Xülasə***

*Bu bir həqiqətdir ki, tarixi şəxsiyyətlərə əsl düzgün qiymət müəyyən zaman keçdikdən sonra verilir. Əlbəttə elə şəxsiyyətlər var ki, onların həyat və fəaliyyətindən nə qədər yazılırsa yazılsın yenə də onları yenidən dərk etmək marağı azalmır. Azərbaycan xalqının Ulu öndəri, tarixi şəxsiyyət Heydər Əliyev də məhz belə dahi şəxsiyyətlərdəndir. Heydər Əliyev şəxsiyyəti, ömrü, zəngin irsi siyasi-mənəvi tariximizdə elə uca bir zirvədir ki, bu zirvənin əzəmətini gələcək nəsillərə çatdırmaq biz elm adamlarının, o xüsusilə də filosof-*

*ların ümdə vəzifəsidir. Bu məqalədə Ulu öndəri, tarixi şəxsiyyət Heydər Əliyevin və keçdiyi şərəfli həyat və siyasi fəaliyyət dövründən bəhs olunur.*

***Açar sözlər:*** *Azərbaycan, xalq, ulu öndər, şəxsiyyət, Heydər Əliyev*

# The Way of the Great Leader of the Azerbaijanı People, Historical Personality Heydar Aliyev

***Abstract***

*It is also a fact that the true value of historical personalities is given only after a certain period of time has passed. Of course, there are such personalities that no matter how much is written about their life and activities. still, the interest to understand them anew does not decrease. Heydar Aliyev, the great leader of the people of Azerbaijan, a historical figure, is one of such great personalities. Heydar Aliyev's personality, life, and rich heritage are a great peak in our political and cultural history. It is the responsibility of us scientists to convey the glory of this summit to future generations. It is also the general purpose of philosophers. This article talks about the glorious life and period of political activity of Heydar Aliyev, the great leader and historical figure.*

***Keywords:*** *Azerbaijan, people, great leader, personality, Heydar Aliyev*

## Giriş

Hər şeydən öncə ümummilli lider Heydər Əliyevin daxili aləmində, həyat yolunda, fikrində, sözündə, əqidəsində xalqına və vətəninə bağlılığında elə dərin bir müdriklik vardır ki, bunun özü elə bir fəlsəfi traktatdır. Bundan sonra dövlət quruculuğu strategiyası, qlobal məsələlərin həllində siyasi taktikası illər boyu dərindən öyrənilib qiymətlənməli siyasi-fəlsəfi mövzudur. Təsadüfi deyil ki, dünyanın inkişaf etmiş, qabaqcıl ölkələrinin dövlət başçıları və tanınmış siyasət adamları türk dünyasının görkəmli siyasi xadimi, böyük lider Heydər Əliyevi dahi şəxsiyyət, siyasət ustadı kimi qəbul etmiş, onun siyasi idarəçilik yolunun bir məktəb olduğunu vurğulamışlar.Ümummilli lider Heydər Əliyev öz xalqı üçün Müstəqil dövlət, xalqının elmi təfəkkürü üçün dolğun bir idarəçilik proqramı, bütövlükdə daim əxz ediləcək siyasi təcrübə modeli qoyub getdi. Bu gün Ulu öndərin həyatda olmadığı bir vaxta biz onun ölməzliyini siyasətinin müdriklik gücündə, ideyalarının yeniliyi, aktuallığı, əbədiyaşarlılığında görürük və öz xalqına həsr olunmuş bu mübariz həyat yolunun elmi əsaslarla öyrənilməsi, bu nadir şəxsiyyətin dövlət quruculuğu və idarəçilik məktəbinin dərindən öyrənilməsi üçün geniş tədqiqatlar aparılmalıdır.

Bizim yaddaşımızda Ulu öndər Heydər Əliyevin yolu müdriklik yoludur. Bu baxımdan Heydər Əliyevin tədqiqatçılarından BİRİ, - fəlsəfə elmləri doktoru Xatirə Quliyevanın elmi-obyektiv qənaəti xarakterikdir. O yazır: "Problemə bu tarixi tipoloji qiymətləndirmələr konteks-

tindən və eləcə də müasir politoloji aspektlərdən yanaşdıqda xalqımızın görkəmli şəxsiyyəti Ulu öndər Heydər Əliyevin yeritdiyi idarəçilik siyasət müdriklik keyfiyyətləri ilə diqqəti cəlb edir. Həm də xüsusilə vurğulamalıyıq ki, Heydər Əliyev müdrik siyasətçi Lider zirvəsinə heç də təsadüfi, ”anidən” deyil, pillə-pillə, ömür sınaqları və iş təcrübələrindən inamla çıxmaqla, yüksək peşəkarlığa yiyələnməklə ucalmışdır. Ulu öndər Heydər Əliyev siyasətinin müdriklik gücü Milli Dövlət ideyasını şərtləndirən ən əsas qayə əlbəttə ki, onun milli Lider missiyası idi və o bu missiyasını nəinki ölkəmizin müstəqillik əldə etdiyi mərhələdəki siyasi fəaliyyətində, hətta sərt totalitar sovet imperiyasında ən yüksək siyasi kürsülərdə təmsil olunduğu dövrdə nəhəng bir dövləti idarəetmə siyasətində xüsusi diqqətdə saxlamış, öz məqsəd və amalı olaraq dərk edib bütün qüvvəsilə həyata keçirmişdir. Bu ağır və ikiqat məsuliyyətli işin öhdəsindən o, məhz milli lider şəxsiyyətindən irəli gələn güclü iradə, mətinlik, qəhrəmanlıq keyfiyyətlərinin cəmləndiyi müdrik siyasət vasitəsilə gəlmişdir” (Quliyeva, 2019). Müəllifin geniş və elmi təhlillərə əsaslanan bu qənaətində Ulu öndər Heydər Əliyevin siyasi qüdrəti tarixi kontekstdə, o cümlədən dünyanın Mustafa Kamal Atatürk kimi əfsanəvi siyasi Liderinin dünya quruculuğu siyasəti ilə müqayisədə qiymətləndirilir. Ulu öndər Heydər Əliyevin yolu böyük Atatürkün liderlik yolunun davamı kimi böyük əhəmiyyət kəsb edir. Azərbaycanın istiqlaliyyət tarixi və xalqımızın Ulu öndəri – Heydər Əlirza oğlu Əliyevlə Türk dünyasının “atası” Mustafa Kamal Atatürk arasında da beləcə liderlik taleyi uyğunluğu olmuşdur. Ulu öndər Heydər Əliyev “yolunda” ən əsas varlıq doğma vətəni Azərbaycan idi. Heydər Əliyevin "Mənim həyatımın məqsədi Azərbaycandır, Azərbaycan xalqıdır, Azərbaycan Respublikasıdır, Azərbaycan vətəndaşıdır. Əgər mən buna nail ola bilsəm, ən xoşbəxt adam kimi həyatımı başa çatdıracağam. Buna da nail olmağa çalışıram və çalışacağam" – düşüncəsi bu əsas yolu” dolğun işıqlandırır. Böyük siyasi xadim, bəşər tarixindəki nadir şəxsiyyətlərdən olan ümummilli lider Heydər Əliyevin hələ totalitar sovet rejimi zamanı milli ideologiyanın yaşadılmasındakı, elm və təhsilin, milli tariximizin, mədəniyyətimizin və ədəbiyyatımızın qorunması və təbliğindəki, iqtisadiyyatımızın inkişafındakı misilsiz xidmətləri olmuşdur. Dahi öndər XX əsrin sonlarındakı siyasi fəaliyyətini Azərbaycanın milli müstəqilliyinin qorunmasına, dinamik inkişafına, sosial-iqtisadi tərəqqisinə, dünya arenasında tanınmasına həsr edərək xilaskarlıq, liderlik missiyasını yerinə yetirmişdir. Xalqın taleyüklü məsələlərinin uğurlu həlli, ölkədə milli həmrəyliyin, sülh və demokratiyanın bərqərar olması, xarici siyasət istiqamətindəki qətiyyətli addımlar, gələcək inkişaf strategiyasının müəyyənləşdirilməsi Ümummilli Liderin adı ilə bağlıdır. Beləki, Heydər Əliyevin hakimiyyətə ikinci qayıdışınadək Azərbaycanda dövlətin yalnız adı var idi. Azərbaycan müstəqil respublika kimi tanınsa da Dünya dövlətləri sırasında yer tuta

bilməmişdi. Məhz Heydər Əliyevin qayıdışından sonra Azərbaycan dünya birliyində öz layiqli yerini tutdu. Heydər Əliyev qayıdışının ilk günlərindən Azərbaycanın müstəqil dövlətçiliyinin əsaslarını yaratmağa və möhkəmlətməyə, Azərbaycanın daxili və xarici siyasət kursunu milli maraqlar və mənafelər üzərində müəyyənləşdirməyə və həyata keçirməyə başladı.

Dünyanın ən qüdrətli dövləti olan ABŞ–la münasibətlərin nizama salınıb inkişaf etdirilməsində Heydər Əliyevin xidmətləri misilsizdir. 1994–cü ilin sentyabrında "Əsrin müqaviləsi" nin imzalanması bu yolda ən mühüm və ən başlıca amil, Azərbaycanla Qərb arasındakı münasibətlərdə yeni həm də dönüş nöqtəsi oldu. Bu əlaqə və münasibətlərin inkişafının nəticəsi o oldu ki, ABŞ Azərbaycanın ərazi bütövlüyünü tanıdı və münaqişənin dinc yola həllinə tərəfdar olduğu haqqında bəyənat verdi. Bill Klinton öz bəyənatında göstərirdi "Amerika Azərbaycanın ərazi bütövlüyünü və müstəqilliyini dəstəkləməkdə davam edir. Geniş səpkili əlaqələri inkişaf etdirməklə biz Amerika Azərbaycan əməkdaşlığını genişləndirəcək əbədi olaraq suveren və çiçəklənən Azərbaycan dövlətinin qurulmasında Heydər Əliyevin səylərinə kömək etməkdə davam edəcəyik'' (Əliyev, 1997). Bu çox əhəmiyyətli bir bəyənat idi. Bu Heydər Əliyev diplomatiyasının, Azərbaycanın əsaslandırılmış və sistemləşdirilmiş yeni xarici siyasət xəttinin növbəti uğuru idi. Xəzər dənizinin zəngin enerji ehtiyatlarının işlənməsi və dünya bazarlarına nəql edilməsi istiqamətində həyata keçirilən irimiqyaslı layihələrin uğurla başa çatdırılması əhalinin maddi rifahının yaxşılaşması, ölkəmizin iqtisadi potensialının yüksəldilməsi və xarici investisiyaların həcminin artmasına geniş imkanlar yaratdı.

Heydər Əıiyevin neft strategiyasının Azərbaycan üçün açdığı imkanları Azırbaycan prezidenti İlham Əliyev Cenevrədə İnformasoya Cəmiyyəti üzrə ümumdünya sammitindəki nitqində belə dəyərləndirmişdir: "Ölkəmizin əlverişli coğrafi–siyasi mövqeyi Azərbaycanı Şərq–Qərb, Şimal–Cənub nəqliyyat dəhlizlərinin vacib hissəsi etmişdir. Bu nəqliyyat dəhlizləri vasitəsilə Azərbaycana yeni bizneslər və yeni informasiya növləri axıb gəlir" (Azərbaycan qəzeti, 200311 dekabr).

Ölkəmizdə uğurla həyata keçirilən neft diplomatiyası Azərbaycanı bütövlükdə Cənubi Qafqaz və MDR dövlətləri sırasında enerji asılılığı olmayan dövlətə çevirmişdir. Bakı–Tbilisi–Ceyhan neft kəməri və Bakı–Tbilisi–Ərzurum qaz kəməri dünya miqyaslı layihələr olmaqla Azərbaycanın enerji təhlükəsizliyinin təminatına geniş imkanlar açır. Bu layihələr eyni zamanda respublikamızın müstəqilliyinin möhkəmlənməsinə və Azərbaycanın regionda müstəqil siyasət aparmasının təminatıdır. Bu layihələr həm də region dövlətlərinin enerji

sahəsində qlobal əməkdaşlığının rəmzinə çevrilmişdir. Zəngin neft ehtiyyatlarına malik Qazaxstanın Bakı–Tbilisi–Ceyhan kəmərinə qoşulması buna əyani sübutdur.

Heydər Əliyevin şəxsi təşəbbüsü uzaq görən siyasəti nəticəsində tarixi ipək yolunun bərpası ilə bağlı Şərq–Qərb, Şimal–Cənub kommunikasiya layihələrinin həyata keçirilməsi Azərbaycan bölgələrinin iqtisadi dirçəlişinə zəmin yaratmışdır. Avropa Birliyinin dəstəyi ilə həyata keçirilən “Böyük İpək yolu” layihəsi gerçəkləşdirilərkən yeni iş yerləri və istehsal kompleksləri yaradılır, xidmət sahələri təkmilləşdirilir, tikinti işləri və şəhərsalma sürətləndirilir və modernləşdirilir. Bu layihə həm də Avropa ilə Asiya arasında körpü rolunu səmərəli surətdə həyata keçirməyə qadir olan Azərbaycanın böyük potensial qüdrətini nümayiş etdirir. Bu gün suveren Azərbaycan Respublikası ğzünün şərəfli və məsul günlərini yaşayır. Hal-hazırda möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi altında əslində demokratik dövlət quruculuğu inamla həyata keçirilir, ictimai həyatın bütün sahələrində gedən dirçəliş göz qabağındadır. Respublikamızın qüdrətli bir dövlətə çevrilməsi istiqamətində tarixi addımlar atılır.Bu baxımdan əsası xalqımızın ümummilli lideri Heydər əliyev tərəfindən qoyulmuş bu əzəmətli inkişaf yoluna, böyük öndərin həyata keçirdiyi siyasi xətt üzərində düşünərkən bir daha dərindən dərk edirsən ki, gözəl gələcək qaçılmazdır və bizim uzaqgörənliklə əsası qoyulmiş bu yolla irəliləyən xalqımız bu cür parlaq gələcəyə layiqdir. Çünki bu yol Heydər Əliyevin yoludur. Sosial zaman ictimai proseslərin, cəmiyyətin, dövlətin və insanların həyatındakı tarixi dəyişikliklərin yolçusudur. Onun doğru inkişaf istiqaməti tarixi prosesdə görkəmli şəxsiyyətlərin rolunu zəruri edir.Cəmiyyətin yüksək xətt üzrə inkişafı, eləcə də keçid mərhələsində tarixi hadisələrin mürəkkəbliyi və ziddiyyətlərin xarakteri bu şəxsiyyətlərin aparıcı və həlledici rolunu ön plana çəkir, onların keçdiyi və müəyyənləşdirdiyi yola bir daha nəzər salmağa böyük ehtiyac olduğunu göstərir. Sosial zaman kəsiyində tarixi inkişaf prosesi bizə müxtəlif mənəviyyata və zəkaya malik şəxsiyyətlər vermişdir. Onlar hakimiyyətə gəələrkən ictimai hadicələrin gedişinə müxtəlif istiqamətlərdə təsir göstərmişlər.Bu zaman ya obyektiv inkişaf ləngimiş, xaos və özbaşnalıq yaranmış, ya da cəmiyyət tərəqqi və yüksəliş yoluna düşmüş, ictimai sabitlik formalaşmışdır. Bu baxımdan Hegelin şəxsiyyət haqqındakı fikri çox səciyyəvidir: “Siyasi tənəzzülə doğru sürətlə yaxınlaşmaqda olan xalqın taleyini yalnız dahi xilas edə bilər.” Bu həqiqətdir ki, tarixi şəxsiyyətlərə əsl qiymət zaman keçdikdən sonra verilir.lakin elə şəxsiyyətlər var ki, onlardan nə qədər ayzılırsa yazılsın, yenə də həyat və fəaliyyətlərini olduğu kimi əks etdirmək mümkünsüzdür. Azərbaycan xalqının ümumilli lideri Heydər Əliyev də məhz belə şəxsiyyətlərdən idi və onun keçdiyi yolu öyrənmək, dediklərini rəhbər tutmaq mənəvi

borcumuzdur. Heydər Əliyev şəxsiyyəti və onun ömrü siyasi-mənəvi tariximizdə elə ua bir zirvədir ki, biz o zirvənin əzəmətini gələcək nəsillərə çatdırmaq üçün əlimizdən gələni əsirgəməməli, bu zəngin irsi daim öyrənməli və öyrətməliyik. Ümummilli lider Heydər Əliyevin siyasi ideyalarının bu gün Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirilməsi nəticəsində Azərbaycan, o cümlədən Naxçıvan Muxtar Respublikası hərtərəfli və dinamik inkişaf yolundadır. Azərbaycan xalqı bundan sonra da ulu öndər Heydər Əliyev ideyasının, dühasının işığında sıx birləşərək milli birlik, əzmkarlıq nümayiş etdirəcəkdir.

Heydər Əliyev xalq tərəfindən ümumilli lider kimi sevilir. Azərbaycan vətəndaşları onun ideyaları ətrafında sıx birləşmişlər. Heydər Əliyevin daxili aləmində, əməlində, sözündə, fikir və humanistliyində, əqidəsində xalqına və vətəninə bağlılığında müdrik keyfiyyətlər öz əksini tapmışdı.Ən qlobal məsələlərin həllində belə milli liderimizin iştirakı insanlarda nikbinlik hissi formalaşdırırdı. Təsadüfi deyildir ki, dünyanın ən inkişaf etmiş ölkələrinin dövlət başçıları və görkəmli siyasət adamları türk dünyasının ümumilli lideri Heydər Əliyevi dahi şəxsiyyət, böyük siyasət ustadı sayır və onun əfsanəvi həyat yolunun bir məktəb olduğunu vurğulayırlar.

Heydər Əliyev vətəndaş qarşıdurmasına düçar olmuş və parçalanmaq təhlükəsi ilə üzləşmiş bir dövrdə xaosa və anarxiyaya son qoydu. Dünyaşöhrətli siyasətçi müasir, müstəqil, inkişaf edən, sivil, demokratik dünyavi Azərbaycan dövlətini yaratdı, onun işlək idarəçilik mexanizmini formalaşdırdı. Heydər Əliyev milli- mənəvi dəyərlərimizi dirçəltdi və inkişf etdirdi.Heydər Əliyev milli iqtisadiyyatı böhrandan çıxardı və onu azad bazar münasibətləriəsasında qurdu.

**Nəticə**

Ağılları, ürəkləri fəth edə bilmək yalnız zamanın fövqündə duran, sağlığıda milyonların qəlbində ölməzlik məşəlini yandıran, millətin iradəsi olan böyük liderlərə nəsib olur. Tarix yaradan bu şəxsiyyətlərin həyatı bütöv bir xalqın taleyinə düşür. Zamanın, tarixin yetişdirdiyi dahilərə Allah bir xilaskarlıq missiyası verir. – xalqını məhvolma təhlükəsindən qurtarmaq, öz işıqlı ideyaları və əməlləri ilə xalqın uzun illər arzusunda olduğu azadlığa, müstəqilliyə qovuşdurmaq missiyasını. Allah xalqımıza bu şərəfli missiyaı daşımaq üçün böyük insa, müdrik xilaskar Heydər Əliyevi göndərmiş. Onun "Mən xalqımın, vətənimin yolunda şəhid olmağa hazıram" ifadəsi vətəninin müstəqilliyi, xoşbəxt gələcəyi naminə məğrur bir sərkərdənin etirafı idi. Peyğəmbərimiz deyirdi: "Mən Allahın yaratdıqlarınlənət etmək üçün deyil, onları haqqa dəvət üçün göndərildim." Üzərindən uzun illər keçməsinə baxmayaraq biz o qanlı günləri, yaşadığımız ağır zamanları yadda saxlamalı, bugünki günümüz üçün

kimlərə minnətdar olduğumuzu unutmamalıyıq. Məhz bu zaman Azərbaycan xalqı dərk etdi ki, onun taleyi etibarlı əllərdədir. Ümidləri özünü doğruldacaq, ölkə vətəndaş müharibəsi girdabına düçar olmaqdan qurtarmaq, sabitlik, əmin-amanlıq bərqərar olacaqdır. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin öz xalqı qarşısında, tarix qarşısında ən böyük xidməti Azərbaycanı parçalanmaqdan,dövlətçiliyimizi məhv olmaqdan xilas etməsi,ölkəmizdə möhkəm sosial-siyasi sabitliyə, iqtisadi yüksəlişə nail olması, respublikamıza böyük sərmayələr gətirən, onu dünya sivilizasıyasına qovuşduran müdrik daxili və xarici siyasət kursu yetirməsi idi.

Xalqının ümummilli lideri Heydər Əliyev təkcə Azərbaycanın, regionun deyil, dünyanın siyasi proseslərinə təsir göstərə bilən böyük dövlət xadimi idi. Onun arzuları sonsuz idi. Bu arzuları gerçəkləşdirmək üçün xalqımız bu dahi şəxsiyyətin qurduğu Azərbaycan dövlətini, onun işılı arzularını və ideyalarını bu yolun etibarlı davamçısı olan İlham Əliyevlə birlikdə böyük gələcəyə aparacaqdır. Heydər Əliyevin nurlu dühası xalqımızın böyük gələcəyi olan işıqlı yolunu daim işıqlandıracaqdır. Çünki bu Heydər Əliyevin yoludur.Bu inkişaf, tərəqqi və yüksəliş yoludur.

**Ədəbiyyat**

Əliyev, H. (1997). *Müstəqillik yolu.* (Neşriyat yok).

Quliyeva, X. (2019). *Heydər Əliyev Siyasəti: Milli Dövlət, Milli Lider, Vətəndaşlıq, Mənəviyyat.* (Neşriyat yok).

(2003, 11 dekabr). Azərbaycan qəzeti.